Mayın 7-də Bakının Nərimanov rayonundakı 177 saylı orta məktəbdə Amerika Hüquqşünaşlar Assosiasiyası Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsü (ABA-CEELİ) təşkilatının Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi "Canlı hüquq" proqramında iştirak etmiş III sinif şagirdləri üçün "Yekun dərs"- məzunların buraxılış mərasimi olub.

Məlumat üçün qeyd edirik ki, "Canlı hüquq" proqramı ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin ( USAİD) maliyyə dəstəyi ilə 2004-cü ildən Təhsil Nazirliyi ilə ABA-CEELİ təşkilatı tərəfindən ölkəmizin ümumtəhsil məktəblərində həyata keçirilir. Bu proqramda 8 universitetin hüquq və beynəlxalq hüquq fakültəsindən 100-dən çox tələbə, eləcə də 1200 şagird iştirak edib. 2008-ci ildə isə proqrama 35 ümumtəhsil məktəbi qoşulub.

Tədbirdə ABŞ-nın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Enn Ders, Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri Fərzəli Qədirov, ABA -CEELİ-nin ölkə üzrə direktoru Devid Rubino çıxış ediblər.

Mərasimdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, ABA-CEELİ, USAİD-in əməkdaşları və proqram üzrə çalışan tələbələr iştirak edib.

Səfir Enn Ders "Canlı hüquq" proqramı üzrə məzun olan şagirdlərə sertifikatlar təqdim edib və şagirdlərlə xatirə şəkilləri çəkdirib.

Sonda qonaqlar məktəbin foyesində şagirdlərin əl işlərindən ibarət olan sərgi ilə tanış olublar.